*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*



**Heydər ƏLİYEV**


# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 27 dekabr 2017-ci il № 98 (2215) Qiyməti 25 qəpik


# Dünya azərbaycanlılarına



Əziz həmvətənlər!

Hörmətli soydaşlar!

Milli birlik və Vətənə məhəbbət kimi nəcib duyğuları təcəssüm etdirən 31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü ərəfəsində hər birinizi ürəkdən salamlayır və ən xoş arzularımı çatdırıram.

Qəlbi həmişə doğma yurda sevgi hissi ilə döyünən bütün soydaşlarımızın milli-mənəvi dəyərlərə bağlılığı və Azərbaycanla əlaqələrinin daha da möhkəmləndirilməsi daim dövlətimizin diqqət mərkəzindədir. Ümummilli lider Heydər Əliyevin irəli sürdüyü azərbaycançılıq məfkurəsinə əsaslanan ardıcıl tədbirlər xaricdə yaşayan həmvətənlərimizin daha sıx birliyinin təşəkkül tapmasına təkan vermiş, ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı faydalı münasibətlərinin inkişafında diaspor təşkilatlarının rolunu xeyli gücləndirmişdir.

Bu gün Azərbaycan Respublikası böyük iqtisadi, siyasi və mədəni potensiala malikdir. Bu potensial dövrün mürəkkəb çağırışlarına adekvat cavab vermək üçün bizə geniş imkanlar açır. Müstəqil dövlət kimi öz yolunu inamla davam etdirən ölkəmizdə qlobal maliyyə-iqtisadi böhranın təsirləri aradan qaldırılmış, sosial-iqtisadi inkişafın dayanıqlığı və davamlı ictimai-siyasi sabitlik təmin olunmuşdur. Təşəbbüskarı olduğumuz transmilli layihələrin həyata keçirilməsində yüksək nailiyyətlər qazanmışıq. Nəhəng neft şirkətləri ilə "Əsrin müqaviləsi"nin 2050-ci ilə qədər uzadılmasına dair sazişin imzalanması, Bakı-Tbilisi-Qars dəmir yolunun istifadəyə verilməsi, Şimal-Cənub nəqliyyat dəhlizinin ölkəmizdən keçən hissəsində işlərin başa çatdırılması respublikamızın tərəqqisi və xalqımızın rifahının yüksəlməsinə xidmət edir, Azərbaycanın dünyadakı geostrateji əhəmiyyətini artırır.

Mədəniyyətlərarası dialoqun təşviqi və ümumbəşəri problemlərin həlli sahəsində dövlətimizin ardıcıl və qətiyyətli mövqeyi beynəlxalq aləmdə rəğbət hissi ilə qarşılanır. 2017-ci ilin ölkəmizdə "İslam Həmrəyliyi İli" elan edilməsi, IV Ümumdünya Mədəniyyətlərarası Dialoq Forumunun və IV İslam Həmrəyliyi Oyunlarının uğurla keçirilməsi Azərbaycanın multikulturalizmə və tolerantlıq ənənələrinə sadiq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Biz Vətənimizin hərtərəfli inkişafı ilə bağlı qarşıya qoyduğumuz məqsədlərə çatmaq üçün əzmlə çalışırıq. Ölkəmizin beynəlxalq əlaqələrinin genişlənməsində, qədim və zəngin mədəniyyətinin təbliğində, Azərbaycana qarşı təxribatçı əməllərin qarşısının alınmasında diaspor təşkilatlarının da üzərinə mühüm vəzifələr düşür. Buna görə də xaricdə yaşayan həmvətənlərimiz milli maraqlarımızın müdafiəsi naminə azərbaycançılıq ideyası ətrafında sıx birləşməlidirlər. İnanıram ki, sizin məqsədyönlü və birgə fəaliyyətiniz gücümüzü daha da artıracaq, hamımızı dərindən narahat edən Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tezliklə nizamlanmasına, ölkəmizin ərazi bütövlüyünün bərpasına sanballı töhfəsini verəcəkdir.

Sizə bu yolda möhkəm iradə və mütəşəkkillik, şəxsi həyatınızda səadət və firavanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 25 dekabr 2017-ci il.



Nəbzimiz Vətənin nəbzi ilə vurur!

3-cü səhifədə



Azərbaycan əsgəri torpaqlarımızı azad etməyə hazırdır

4-cü səhifədə



“Aprel döyüşləri yaddaşlarımızda unudulmaz iz buraxıb”

5-ci səhifədə



Bu günün vətənpərvər gənci sabahın qalib əsgəridir

6-cı səhifədə

# Müdafiə naziri ön xətdə əsgər yataqxanasının açılışında iştirak edib



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti düşmənlə qarşıdurma xəttindəki mövqelərdə döyüş növbəsi çəkən əsgərlərlə görüşüb.

Əməliyyat şəraiti barədə məruzə edildikdən sonra Müdafiə naziri səngərlərdə hərbi qulluqçuların döyüş və mənəvi-psixoloji hazırlığı, sosial-məişət şəraiti ilə maraqlanıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, daha sonra general-polkovnik Zakir Həsənov ön xətdə xidmət edən hərbçilər üçün yeni inşa edilən əsgər yataqxanasının açılışında iştirak edib və burada yaradılan şəraitlə tanış olub.

Qarşıdan gələn bayramlar münasibətilə Ali Baş Komandanın təbriklərini şəxsi heyətə çatdıran Müdafiə naziri, dövlət başçısı adından xidmətdə fərqlənənlərə mükafatlar və bayram hədiyyələri təqdim edib.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında



qoyduğu tapşırıqları bir daha şəxsi heyətin diqqətinə çatdıran Müdafiə naziri, hərbi qulluqçuların döyüş qabiliyyətini və mənəvi-psixoloji hazırlığını yüksək qiymətləndirib.

fotolar
**Natiq İSAYEVİNDİR**

# Müdafiə naziri daha bir hərbi hissədə şəxsi heyətlə görüşüb



Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin tapşırığına əsasən cəbhəboyu zonada olan general-polkovnik Zakir Həsənov və nazirliyin digər rəhbər heyəti daha bir hərbi hissədə əsgərlərlə görüşüb, yeni inşa edilən qərargah binasının və hərbi texnika üçün saxlancların açılışında iştirak edib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, hərbi hissədə həyata keçirilən tikinti-quruculuq işləri barədə məruzə edildikdən sonra Müdafiə naziri burada yaradılan şəraitlə tanış olub.

General-polkovnik Zakir Həsənov qərargahda xidməti və inzibati otaqlara, eləcə də hərbi texnika üçün nəzərdə tutulmuş saxlanclara, avtoparka baxış keçirib müvafiq tapşırıqlar verib.

Ali Baş Komandanın Azərbaycan Ordusu qarşısında qoyduğu tapşırıqları bir daha şəxsi heyətin diqqətinə çatdı-



ran Müdafiə naziri, qarşıdan gələn bayramlar münasibətilə dövlət başçısı adından şəxsi heyəti təbrik edərək xidmətdə fərqlənənlərə mükafatlar və qiymətli hədiyyələr təqdim edib.

fotolar
**Natiq İSAYEVİNDİR**

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

### Ermənistana məxsus PUA məhv edilib

Dekabrın 25-i günorta saatlarında cəbhənin Ağdam istiqamətində Silahlı Qüvvələrimizin mövqeləri üzərində kəşfiyyat uçuşları həyata keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus pilotsuz uçuş aparatı (PUA) məhv edilib.

### Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

__26 dekabr 2017-ci il.__

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 132 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonunun Şavarşavan kəndində və adsız yüksəkliklərdə, İcevan rayonunun Ayqeovit kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Kəmərli, Qaymaqlı, Fərəhli, Bala Cəfərli kəndlərində və adsız yüksəkliklərdə, Berd rayonunun Mosesqex, Çinari kəndlərində və adsız yüksəkliklərdə yerləşən mövqelərdən Tovuz rayonunun Ağdam, Koxanəbi və Qaralar kəndlərində, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində və adsız yüksəkliklərdə yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Baş Qərvənd, Cəvahirli, Qaraqaşlı, Novruzlu, Mərzili, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Aşağı Veysəlli, Qobu Dilağarda, Qərvənd, Qaraxanbəyli, Qorqan, Kürdlər, Horadiz, Cəbrayıl rayonunun Nüzgar və Mehdili kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam, Xocavənd və Füzuli rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də Silahlı Qüvvələrimizin mövqeləri atəşə tutulub.

# “Ermənilərin Ukraynada “xaçkar”larla bağlı siyasəti təxribatdır”

Bu fikri AZƏRTAC-a açıqlamasında Azərbaycan-Ukrayna parlamentlərarası əlaqələr üzrə işçi qrupunun rəhbəri Rüfət Quliyev deyib.

Deputat bildirib ki, Ukraynanın Xerson şəhərində ermənilər tərəfindən qoyulan abidənin nə 1915-ci ildə Türkiyədə baş verən hadisələr, nə də Ermənistan-Azərbaycan müharibəsi ilə heç bir əlaqəsi yoxdur. Ermənilər buna "xaçkar" deyirlər. Əgər həmin "xaçkar"ın Türkiyə və ya Qarabağ hadisələri ilə əlaqədar olmasına dair bir yazı yer alsaydı, o zaman bunun qarşısı ciddi surətdə alınardı.

"Xaçkar"ın altında iki dildə - Ukrayna və erməni dilində "jertv vırmenskovo naroda" ifadəsi yer alıb. Bu, tarixin bütün dövrlərində qırılan, itkin düşən ermənilərlə bağlı qoyulan bir abidədir. "Xaçkar" xaç formasında bir abidədir. Bundan Ermənistanda da qoyublar. Ermənilər tarixən biri-birilərini də çox qırıblar. Tayfalar biri-birilərini məhv edib, biri-birilərini atların ayaqları altına salıb öldürüblər. Ermənilərı "xaçkar"larla bağlı sıxanda deyirlər ki, biz bunu dünyanın müxtəlif yerlərində müxtəlif zamanlarda yüz minlərlə erməninin qırılması ilə bağlı qoymuşuq, biz özümüz də özümüzü qırmışıq. Şübhəsiz, bu, bir təxribatdır və bizim tərəfimizdən də belə qiymətləndirilir. Bu məsələ ilə bağlı Türkiyə ilə də əlaqə saxladım. Oradakı dostlarımız da bildirdilər ki, bu məsələ ilə bağlı ermənilərin üstünə gedəndə onlar bunu süni şəkildə şişirdir, iddia edirlər ki, biz xaçpərəst bir xalq olaraq öz xaçımızı qoyduğumuz, milli-dini mənsubluğumuzu diqqətə çatdırdığımız üçün bizə təzyiq edirlər", - deyə deputat əlavə edib.

R.Quliyev qeyd edib ki. bu proses təxminən 2-3 il bundan əvvəl başlayıb. Ermənilər hər dəfə müxtəlif formalarda müəyyən addımlar atmağa çalışırlar. Təbii ki, bunun da arxasında güclü erməni lobbisi dayanır.

"Bu məsələdə Türkiyə də sərt addımlar atmalıdır. Diplomatik və yeri gələndə iqtisadi kanallarla effektiv iş aparılmalıdır. Ermənistanın Ukraynanın ərazi bütövlüyü ilə bağlı ortaya qoyduğu mövqe əslində bizim əlimizdə Ukraynadakı erməni təxribatlarının qarşısını almaq üçün çox mühüm bir imkandır. Türkiyə də bu imkandan istifadə etməlidir, necə ki, biz bundan istifadə edirik. Biz mütəmadi şəkildə Ukraynadakı diaspor təşkilatlarımız və səfirliyimiz ilə əlaqə saxlayırıq", - deyə R.Quliyev açıqlamasında qeyd edib.

# UNEC-in nümayəndələri Vətən müdafiəçiləri ilə görüşüblər

*Azərbaycan Dövlət İqtisad Universitetinin (UNEC) professor, müəllim və tələbələrindən ibarət bir qrup respublikamızın Qərb bölgəsinə səfər edərək Vətən müdafiəçiləri ilə görüşüb.*





Hərbi hissənin komandanlığı tərəfindən səmimiyyətlə qarşılanan qonaqlar əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin qərargahın qarşısında ucaldılmış abidəsinin önünə gül dəstələri qoyaraq xatirəsini ehtiramla yad ediblər.

Qrupu müşayiət edən Müdafiə Nazirliyinin əməkdaşı, Əməkdar İncəsənət xadimi, Prezidentin fərdi təqaüdçüsü Abdulla Qurbani hərbi hissənin tarixi, keçdiyi döyüş yolu, yetirdiyi milli qəhrəmanlar və şəhidlik zirvəsinə ucalan döyüşçülər haqqında ətraflı məlumat verib. Onlar Heydər Əliyev Mərkəzi, Əsgər Klubu, Qərargah, Tibb Məntəqəsi və digər obyektlərlə tanış olub, əsgərlərlə birlikdə nahar ediblər.

Azərbaycan-Ermənistan sərhədindəki zirvədə döyüş növbəsini çəkən hərbi qulluqçularla görüş və orada əsgəri xidmət üçün yaradılan şəraitlə tanışlıq qonaqlarda xoş təəssürat yaradıb.

İqtisadi məsələlər üzrə prorektor, Qarabağ müharibəsinin iştirakçısı Mikayıl Zeynalov, Rus İqtisad Məktəbinin direktoru Mənsur Bərxudarov, Beynəlxalq Magistratura və Doktorantura Mərkəzinin rəhbəri Fariz Əhmədov çıxış edərək bütün xalqımız kimi UNEC-in kollektivinin də möhtərəm Prezidentimiz, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında digər sahələrlə yanaşı ordu quruculuğunda da aparılan uğurlu islahatlardan, Azərbaycan Ordusunun güc və qüdrətindən qürur duyduqlarını bildiriblər. Vətən müdafiəçilərini əmin ediblər ki, əgər Aprel döyüşləri yenidən başlayacaqsa döyüşçülərimiz öz sıralarında UNEC-in 20 min nəfərlik könüllülər ordusunu da görəcəklər.



Döyüş və mənəvi-psixoloji hazırlıqda fərqlənən bir qrup hərbi qulluqçuya, eləcə də dayaq məntəqəsinə UNEC-in rektorluğu adından qiymətli hədiyyələr təqdim edilib.

Həmin gün axşam qonaqlar hərbi qulluqçularla birlikdə bir neçə gün öncə Müdafiə Nazirliyinin Qazax rayon İcra Hakimiyyəti ilə birgə təşkil etdiyi "Ordumuz-qürurumuz, xalqımız-dayağımız" hərbi-vətənpərvərlik bayramına həsr olunmuş filmə baxıb, əsgər yataqxanasında gecələyiblər.

Ertəsi gün universitetin Yaradıcılıq Mərkəzinin üzvləri artilleriyaçılar qarşısında geniş proqramla çıxış ediblər. Aslan Əzimzadənin ifasında "Zəfər marşı", Rauf Məmmədzadənin ifa etdiyi "Azərbaycan" mahnısı, Nəriman Nərimanov və Rəşad Cəlilin "Əsgərəm" instrumental ifası, İqbal Bayramov və İlham Quliyevin vətənpərvərlik şeirləri, Ceyhun Bəxtiyarovun ifa etdiyi muğamlar hərbçilərdə xoş ovqat yaradıb.

Azərbaycan Yazıçılar Birliyi Qazax filialının sədri, Əməkdar İncəsənət xadimi Barat Vüsal da qonaqlara qoşulub və Azərbaycan əsgərinə həsr etdiyi yeni şeirlərini oxuyub.

Tankçılarla görüş zamanı qonaqlar zirehli texnikalarla və yeni silahlarla tanış olub, şəxsi heyətlə kompleks və fərdi söhbətlər aparıb, onların arzu və təkliflərini dinləyib və "Qələbə müjdəli Yeni il gəlir" tədbirində işrirak ediblər.

Azərbaycanın Milli Qəhrəmanı Çingiz Qurbanovun vaxtilə xidmət etdiyi bölmədə şəhid əsgərin xatirəsi yad edilib, bir il öncə şəhidlik zirvəsinə ucalan igid döyüşçünün qısa və mənalı həyatı, sücaət və rəşadəti barədə məlumat verilib.

UNEC-in İqtisadiyyat fakültəsinin dekan müavini Nüşirəvan Əliyev, Yaradıcılıq Mərkəzinin direktoru Elman Cəfərov, Tələbə Gənclər Təşkilatının sədri Rəsul Həşimov və İqtisadçı Vətənpərvərlər Mərkəzinin sədri Kəramət Zeynalov iki gün ərzində cəbhə bölgəsindəki əsgərlərlə görüşü uzun müddət unutmayacaqlarını qeyd ediblər. Tələbələrin ifa etdikləri hərbi marşlar, vətənpərvərlik mahnıları və qələbəyə səsləyən alovlu şeirlər şəxsi heyətin döyüş ruhunu daha da yüksəldib.

Hərbi hissə komandiri UNEC-in rektoru, professor Ədalət Muradova və qrupun üzvlərinə göstərdikləri diqqət və qayğıya görə dərin təşəkkürünü bildirib.

Müdafiə nazirinin əmri ilə adı xidmət etdiyi bölüyün şəxsi heyətinin siyahısına əbədi olaraq yazılan Milli Qəhrəman Ç.Qurbanovun davamçılarını - xalqımıza böyük qələbə sevincini yaşadacaq Vətən müdafiəçilərini qarşıdan gələn Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə təbrik edən qonaqlar Qərb bölgəsindən, hərbçilərlə görüşlərdən xoş təəssüratlarla ayrılıblar.

**Müdafiə Nazirliyi
Mətbuat Xidməti**

*Gənc zabitlərimiz*

# Nəbzimiz Vətənin nəbzi ilə vurur!

*Leytenant Kənan Mustafayev Qəbələ rayonu Abrıx kəndində dünyaya göz açıb. Torpaqlarımız uğrunda gedən döyüşlərdə iştirak edənlərin sıralarında olmaq istəyi onda da hərbə sevgi aşılayıb. Nəhayət orta məktəbi bitirdikdən sonra bir an belə düşünmədən sənədlərini Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinə verir.*

Bu il leytenant hərbi rütbəsi ilə ön xətdə yerləşən "N" hərbi hissəsinə taqım komandiri təyin olunur. İlk günlərdən fədakar xidməti ilə fərqlənməyə çalışır. Hərbi hissədə "Gənc zabitlərimiz" rubrikasına yazı hazırlamaq istəyimi bildirdikdə, məhz leytenant Kənan Mustafayevin adını vurğuladılar.

İlk baxışda gözlərinin parıltısından, əynindəki hərbi formanın səliqə-sahmanından hiss olunurdu ki, peşəsinin vurğunudur. Onunla salamlaşıb söhbətə başlayıram. Təbii ki, ilk olaraq bu peşəni seçməsinin səbəbini soruşuram. Aldığım cavab məni qürurlandırdı. "Həyatda hər şey qarşılıqlı olanda onu sevmək, yaşamaq da gözəl olur. Amma heç bir qarşılıq gözləmədən sevilən bir meyar var - Vətən. Mən uşaqlıqdan Vətənimin vurğunuyam. Onun hər qarışını, hər ağacını, daşını sevdiyim üçün qəlbən bu torpağa bağlanmışam. Hərbi forma daşıdığım üçün çox qürurluyam".



Diqqətlə həmsöhbətimi dinləyirəm. Onun səmimi danışığı, hərbə olan sevgisi, öz peşəsinə sıx bağlılığı məni də sevindirir.

- Ön xətdə xidmət etmək daha şərəflidir, - deyir zabit. - Doğma əllərimizə, düşmən əsirliyində olan torpaqlarımıza həsrət bizlərə çətinlikləri hiss etdirmir. Əvvəllər o torpaqlarda insanlarımız əkib-becərməklə, heyvandarlıqla məşğul olub, indi isə o yerlərə həsrət qalmışıq. Hər an erməni faşistlərini yurdumuzdan qovub çıxarmağa hazırıq. Bunu tam məsuliyyəti ilə deyirəm. Çünki güclü ordumuz, müasir silah-texnikalarımız, ən başlıcası, bu texnikaları, silahları məharətlə idarə edən əsgərlərimiz var. Əgər ölkəmizin ərazi bütövlüyü sülh yolu ilə təmin olunmasa, savaşa tam hazırıq.

Ümummilli liderimiz Heydər Əliyevin "Gərək nəbzin Vətənin nəbzi ilə vursun! kəlamı gənc zabitin də yaddaşına həkk olunub. Gələcək döyüşlərdə, döyüşən oğulların sıralarında olmaq leytenant Kənan Mustafayevin də əsas arzusu, məqsədidir.

- Vətən uğrunda canımdan, qanımdan bir an belə düşünmədən keçməyə hər zaman hazıram, - deyir leytenant. Şəhidlik ən uca mənəvi zirvələrdən biridir, torpaqlarımız uğrunda son nəfəsədək döyüşüb qalib ordunun zabiti olmaq, hətta bu yolda şəhid olmaq da məqsədimdir".

Qəlbi Vətənlə döyünən gənc zabitimizlə gələcək görüşlərimizin Şuşada, Laçında, Kəlbəcərdə baş tutması arzusu ilə sağollaşırıq.

**Leytenant
Orxan HÜSEYNLİ,
"Azərbaycan Ordusu"**

# "İlham Əliyev və ordu quruculuğu" mövzusunda elmi-metodiki seminar

*Cəmşid Naxçıvanski adına Hərbi Liseydə "İlham Əliyev və ordu quruculuğu" mövzusunda elmi-metodiki seminar keçirildi. Əvvəlcə ümummilli liderimiz Heydər Əliyevin və torpaqlarımızın azadlığı uğrunda şəhid olanların xatirəsi bir dəqiqəlik sükutla yad olundu.*



Hərbi Liseyin rəisi polkovnik Raizi İsmayılov çıxış etdi. O bildirdi ki, xalqımızın tarixində layiqli yer tutan dahilər, bacarıqlı sərkərdələr və dövlət xadimlərinin xidmətləri həmişə dönə-dönə xatırlanır, heç vaxt unudulmur. "Belə tarixi şəxsiyyətlərdən biri də ümummilli liderimiz, dahi şəxsiyyət Heydər Əliyevdir.

Dahi rəhbərin ötən əsrin 70-ci illərində yaratdığı bu məktəb ordumuzun inkişafında böyük rol oynayıb və bu gün də öz tarixi missiyasını uğurla yerinə yetirir. Ümummilli liderin ordu quruculuğunda gördüyü böyük işlər təkcə Cəmşid Naxçıvanski adına Hərbi Liseyi yaratmaqla məhdudlaşmır.

1993-cü ildə xalqın tələbi ilə hakimiyyətə gələn ulu öndər Heydər Əliyev ölkəmizi parçalanmaqdan xilas etdi. Xalq ona inandı və dərindən dərk etdi ki, ölkəni xaosdan yalnız Heydər Əliyev dühası xilas edə bilər. Ulu Öndər də xalqın etimadını doğrultdu. Bu, tariximizin səhifəsində böyük qayıdış və şərəfli dönüş idi. Vaxtında baş tutan bu tarixi hadisə çox keçmədi ki, müsbət nəticələr verdi. Ölkədə müstəqil dövlətin atributlarının yaranması və möhkəmlənməsi prosesinə başlanıldı. Dövlət quruculuğunun mühüm tərkib hissəsi olan Silahlı Qüvvələrimiz yarandı və formalaşdı. Haqlı olaraq Ulu Öndəri Azərbaycan Ordusunun yaradıcısı adlandırırlar. Dahi siyasətçi, bacarıqlı və müdrik komandan olan Heydər Əliyevin diqqət və qayğısı sayəsində çox qısa bir zamanda ordu yenidən qurularaq dövlətçiliyimizin etibarlı təminatçısına çevrildi.

Ulu öndərimiz müstəqilliyimizin daha da möhkəmləndirilməsi üçün başqa sahələrdə olduğu kimi ordu quruculuğu istiqamətində mühüm, böyük səmərə verən islahatlar həyata keçirməyə başladı. Ordu quruculuğu istiqamətində həyata keçirilən və gələcəyə hesablanmış islahatlar qısa müddət ərzində müsbət bəhrəsini verdi. Qarşıya qoyulan məqsədlərə nail olundu. Cəbhədə dönüş yarandı, erməni işğalçılarına sarsıdıcı zərbələr vuruldu. 1994-cü ilin yanvar ayında Füzuli istiqamətində düşmən ağır məğlubiyyətə düçar oldu. Horadiz qəsəbəsi də daxil olmaqla Füzuli rayonunun işğal altında olan onlarla kəndi düşməndən azad edildi.

Bu gün biz möhtərəm Prezidentimiz, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin orduya göstərdiyi diqqət və qayğını hər addımda hiss edirik. Vətənimiz Azərbaycan dünyanın ən inkişaf etmiş ölkələri ilə yanaşı addımlayır. Hazırda üçrəngli bayrağımız dünyanın bir çox beynəlxalq təşkilatlarının qarşısında əzəmətlə dalğalanır. Ulu öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə həyata keçirən Prezident, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə ordu quruculuğunun yeni mərhələsi başlanıb. Bu gün Azərbaycan Ordusunun malik olduğu silah və texnikanın əksəriyyəti yenilənib, ordumuz ən müasir silahlarla təchiz olunub. Hərbi şəhərciklərin çox hissəsi yenidən tikilib və ya tam təmir edilib. Bütün dediklərimin bariz nümunəsi olaraq fəxrlə qeyd etmək istərdim ki, bir vaxtlar mənim də təhsil aldığım Hərbi liseyimizdə əsaslı təmir işləri başlanıb. Yaxın vaxtlarda Hərbi lisey müasir tələblərə cavab verən tədris korpuslarının qapılarını kursantların üzünə açacaqdır.

Tam inamla demək olar ki, Silahlı Qüvvələrimiz yeni inkişaf mərhələsinə qədəm qoyub. Hərbi hissələrin müasir standartlara uyğun qurulması, şəxsi heyətin həyat və məişət şəraitinin yaxşılaşdırılması, ordumuzun müasir silahlarla təminatı istiqamətində görülən mühüm işlər sayəsində Azərbaycan Silahlı Qüvvələri dünyanın ən güclü orduları ilə bir cərgədə öz layiqli yerini tutub. 2016-cı ilin aprel döyüşləri Azərbaycan Ordusunun gücünü və işğal altındakı torpaqlarımızı qısa müddətdə azad etməyə qadir olduğunu bir daha dünyaya göstərdi.



Daha sonra Milli Məclisin komitə sədri Əli Hüseynli, Hərbi Liseyin müəllimi Peykər Həbibova və başqaları mövzu ətrafında çıxış etdilər.

**Vahid MƏHƏRRƏMOV,**
**C.Naxçıvanski adına Hərbi Lisey**

*Döyüş hazırlığı*

# Azərbaycan əsgəri torpaqlarımızı azad etməyə hazırdır

*Ordumuzun maddi-texniki təchizatı ölkənin iqtisadi inkişaf dinamikası ilə paralel şəkildə yüksələn xətt üzrə davam edir. Ağır artilleriyadan tutmuş, müasir texnikaya, döyüş gəmilərindən, inkişaf etmiş hava qüvvələrinə qədər təmin olunan Azərbaycan Ordusu düşmənin istənilən hədəfini məhv etməyə qadirdir. "N" hərbi hissəsinin reaktiv artilleriya batareyasında gördüklərimiz də bunu deməyə əsas verir.*



Batareyanın şəxsi heyəti ilə tanışlığımız praktiki dərs prosesində baş tutur. Baş leytenant Səttarxan Əhmədov şəxsi heyətə təhlükəsizlik qaydalarını çatdırırdı. Sonra zabit tərəfindən şəxsi heyətə raket-buraxma qurğusundan atəş açılana qədər atəş mövqeyində görülən işlərin nəzəri tərəfi izah olunur. Şəxsi heyətin nəzəri baxımdan öyrəndiklərinin praktikada tətbiqi prosesini izləmək imkanı da qazanırıq.

İlk olaraq şəxsi heyət 4 nəfərdən ibarət qruplara bölünür. Baş leytenant Səttarxan Əhmədov qruplara bölünən heyətlərə qurğunun döyüşə və səfərə gətirilmə normativlərini çatdırır. Zabitin əmri ilə qurğuya yaxınlaşan şəxsi heyət şərti atəş mövqeyində olan raketburaxma qurğusunu döyüş vəziyyətinə gətirməyin qaydalarını məşq etməyə başlayır. Zabit tərəfindən atəş mövqeyinin koordinatları müəyyən edilir və rabitə vasitəsilə şəxsi heyətə ötürülür. Qurğu komandiri bucaqölçənləri və nişangahı hesabladıqdan sonra komandanı olduğu kimi təkrarlayır. Növbəti işi üzərinə götürən tuşlayıcı nişangah və bucaqölçəni hazır edir. Bundan sonra iki heyət nəfəri qaldırma və döndərmə mexanizmləri vasitəsilə qurğunu döyüş vəziyyətinə gətirir. Bir neçə dəfə bu prosesi izlədikdən sonra şəxsi heyətə yaxınlaşırıq.

Baş leytenant Səttarxan Əhmədov söhbətə başlayaraq qeyd edir ki, döyüşün növündən asılı olmayaraq düşmənə atəşlə zərərvurmanın əsas tapşırıqları raket və artilleriya qoşunlarının üzərinə düşür. Döyüş zamanı düşmənin zəiflədilməsi məqsədilə müxtəlif növ artilleriya silahlarından onun qoşunlarına və obyektlərinə uzlaşmış şəkildə və təyin olunmuş qaydada atəş edilir. Burada əsas məqsəd döyüşün gedişində üstünlüyə nail olmaq və piyadaların hücumuna şərait yaratmaqdır.

Aprel döyüşlərinin iştirakçısı olan zabit bildirir ki, həmin döyüşlərdə düşmənin xeyli sayda hərbi texnikasını zərərsizləşdirdik, əsas mərkəzlərini məhv etdik və şəxsi heyətimizin sərbəst irəliləməsi üçün geniş imkanlar yaratdıq.

Zabit keçirilən dərsin əhəmiyyətinə də toxunur: "Bütün dərslərin və təlimlərin əhəmiyyəti böyükdür. İlk növbədə bütün bunlar bədnam qonşularımıza bir mesajdır ki, hərbi potensialımız istənilən səviyyədədir və münaqişə hərbi müstəviyə keçən zaman öz gücümüzü sübut etməyə qadirik".

İsmayıllı rayonundan hərbi xidmətə gələn əsgər Osman Davudov söhbətimizdə bildirir ki, istənilən anda başlaya biləcək müharibəyə hazırıq. "İşğal olunan torpaqlarımızı azad etmək inamı ilə daim döyüş növbətçiliyi çəkirik, dərslərdə və təlimlərdə iştirak edirik. Biz yaxşı bilirik ki, torpaqlarımızın işğaldan azad olunması Azərbaycan əsgərinin əsas vəzifəsidir. Qələbə naminə təlim prosesinin çətinliyinə dözməyə və tər tökməyə hazırıq. Əsas odur, qazanılan təcrübənin hesabına döyüşdə itkilərimiz az olsun".

- Əzəli və əbədi Azərbaycan torpağı olan Qarabağ nə qədər ki, düşmən tapdağındadır, bizə rahatlıq yoxdur, - deyə əsgər Elşad Mirzəyev də söhbətə qoşulur. İgidliyi ilə ad qazanan Mete Xaqanın, Atillanın, Çingiz xanın, Babəkin, Şah İsmayıl Xətainin davamçılarıyıq. Biz hər zaman düşmən təxribatlarına layiqli cavab verməyə, bu təxribatların qarşısını qətiyyətlə almağa qadirik.

Xızıdan hərbi xidmətə çağırılan Rasim Əsgərzadə də bildirir ki, onların ixtiyarında olan müasir silah və texnika hesabına istənilən tapşırığı yerinə yetirəcəklər.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin plenumu keçirilib

*Həzi Aslanov adına Mərkəzi Zabitlər Evində Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin 2017-ci ilin yekunları ilə bağlı plenumu keçirildi. Plenumda Müdafiə, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliklərinin, Dövlət İdarə və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Komitəsinin nümayəndələri də iştirak edirdi.*




Öncə ümummilli lider Heydər Əliyevin və Vətənimizin müstəqilliyi, ərazi bütövlüyü uğrunda şəhid olanların, vəfat etmiş komitə üzvlərinin xatirəsi bir dəqiqəlik sükutla yad edildi.

Azərbaycan Respublikasının Dövlət himni səsləndirildi.

Komitənin sədri Abiyat Ağadadaşova hesabat məruzəsinə Prezident, Ali Baş Komandan İlham Əliyevin "Sabitlik, təhlükəsizlik, əmin-amanlıq, iqtisadi inkişaf, maddi rifah - bu amillər ölkənin ümumi inkişafını təmin edir. Biz bu siyasəti bundan sonra da davam etdirəcəyik" - sözləri ilə başlayaraq orduda aparılan islahatlardan, Silahlı Qüvvələrin maddi-texniki bazasının gücləndirilməsindən, aprel zəfərindən danışaraq bildirdi ki, illər sonra işğaldan azad edilən torpaqlarda üçrəngli bayrağımızın dalğalanmasının şahidi olmaq insana müqayisəyəgəlməz hisslər yaşadır. "Bu gün Cocuq Mərcanlı Ali Baş Komandanın böyük səyi nəticəsində ikinci həyatını yaşayır. Prezidentin 2017-ci il yanvarın 24-də imzaladığı "Cəbrayıl rayonunun işğaldan azad edilmiş Cocuq Mərcanlı kəndinin bərpası haqqında" Sərəncamı xüsusi əhəmiyyətə malikdir. Bu sərəncamdan sonra kənddə böyük quruculuq işlərinə başlandı. Dövlət başçısının xüsusi diqqət və qayğısı sayəsində həyata keçirilən bərpa işlərinin birinci mərhələsi başa çatıb. Bir neçə aydır ki, Cocuq Mərcanlı sakinləri öz doğma kəndlərində yaşayırlar. Böyük Qayıdışın başlanğıcı olan bu kəndin bərpası ilə bağlı dövlət səviyyəsində həyata keçirilən tədbirlər bir daha təsdiqləyir ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq, torpaqlarımız işğaldan azad ediləcək".

Komitə sədri Prezident İlham Əliyevin Sərəncamı ilə Heydər Əliyev Fondunun və Azərbaycan Mədəniyyət Fondunun Prezidenti, UNESCO və İSESCO-nun xoşməramlı səfiri Mehriban Əliyevanın Azərbaycan Respublikasının birinci Vitze-Prezidenti təyin olunmasının, Baki-Tbilisi-Qars dəmir yol xəttinin istifadəyə verilməsinin, IV İslam Həmrəyliyi Oyunlarında idmançılarımızın komanda hesabında birinci yerə çıxmasının, BHİK-nin 50 illik yubileyinin qeyd olunmasının dövlətimiz və Həmkarlar ailəsi üçün ən yadda qalan hadisələr olduğunu vurğuladı.

Qurumun fəaliyyəti haqqında məlumat verən Abiyat xanım bildirdi ki, komitənin fəaliyyəti çoxşaxəlidir. "Komitənin əsas vəzifəsi ittifaq üzvlərinin sosial-iqtisadi mənafelərini və qanuni hüquqlarını müdafiə etmək, kollektiv müqavilələrin vaxtında bağlanmasına və yerinə yetirilməsinə ciddi nəzarət etmək, əməyin mühafizəsini, təhlükəsiz iş şəraitini təmin etmək, üzvlərin sağlamlıqlarının qayğısına qalmaq, onları maarifləndirmək və asudə vaxtlarını səmərəli təşkil etməkdən ibarətdir".

Hesabat dövründə BHİK-nin Rəyasət heyətinin zəruri qərarlar qəbul etdiyi də diqqətə çatdırıldı. İşəgötürənlə təşkilat arasında bağlanmış kollektiv müqaviləni komitə sədri əmək kollektivlərinin əlində mühüm vasitə kimi qiymətləndirərək bildirdi ki, bu vacib sənədin bütün müddəalarına diqqətlə yanaşılmalıdır. "Ən azı ildə bir dəfə əmək öhdəliklərinin yerinə yetirilməsi kollektivin ümumi iclasında müzakirəyə çıxarılmalıdır. Yerlərdə kollektiv müqavilələrin yerinə yetirilməsi BHİK tərəfindən daim nəzarətdə saxlanılır. 76 təşkilatdan 65-də kollektiv müqavilə bağlanılıb və onun şərtlərinə tam əməl olunur".

Üzvlərinin sağlamlığı ilə daim yaxından maraqlandığını və lazımi köməklik göstərildiyini bildirən komitə sədri qeyd etdi ki, il ərzində Dövlət Sosial Müdafiə Fondu hesabına 39 nəfərə sanator-kurort göndərişi, 51 nəfərə büdcə hesabına ailəvi istirahət evlərinə və turist bazalarına yollayışlar verilib. Həmçinin respublikamızın müxtəlif istirahət guşələrinə təşkil olunan kütləvi gəzintilərdə 650-700 nəfər işçi ailəvi iştirak edib. Ehtiyacı olanlara da maddi yardım göstərilib.

9 may Qələbə Günü ərəfəsində İkinci Dünya müharibəsi veteranları ilə görüşlər keçirilib, onlara hədiyyələr verilib.

Məruzəçi qeyd etdi ki, Azərbaycan Həmkarlar İttifaqı Konfederasiyasının sədri, millət vəkili Səttar Möhbalıyevin, Dövlət İdarələri və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Respublika Komitəsinin sədri Hikmət Osmanovun dəstəyi ilə davamlı olaraq bütün bölgələrdə, ələlxüsus, ön xətdə əsgərlərimizlə görüşlər təşkil edilib. Təşkilat və komissiya sədrlərinin, üzvlərinin maarifləndirilməsi, sosial müdafiə ilə bağlı biliklərinin artırılması məqsədi ilə müxtəlif seminarlar keçirilib. İl ərzində Əmək və Sosial Münasibətlər Akademiyasında təşkil olunan kurslarda komitənin əməkdaşları da fəal iştirak ediblər.



Üzvlərin asudə vaxtının səmərəli təşkilinə daim diqqət yetirən komitənin xətti ilə il ərzində idmanın müxtəlif növləri üzrə yarışlar keçirilib. Qaliblər fəxri fərman, diplom və qiymətli hədiyyələrlə mükafatlandırılıb. Habelə, üzvlərin sosial müdafiəsi məqsədilə çoxsaylı tədbirlər həyata keçirilib.

2018-ci il çox məsuliyyətli və əlamətdar bir il olacaq. Belə ki fevralda respublika həmkarlarının VI qurultayı keçiriləcək.

Abiyat xanım hesabat çıxışının sonunda bildirdi ki, komitənin kollektivi ümummilli lider Heydər Əliyevin ideyalarına sədaqət nümayiş etdirməklə Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan İlham Əliyevin siyasi kursunun tam dəstəkləyir, xalq ilə ordu birliyinin möhkəmləndirilməsinə dəyərli töhfəsini verir."Qarşıdan gələn 31 dekabr Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibəti ilə komitənin üzvlərini, hər kəsi təbrik edirəm. İnanıram ki, yaxın gələcəkdə biz əlamətdar günlərimizi işğaldan azad ediləcək əzəli torpaqlarımızda da qeyd edəcəyik".

Mənəvi-Psixoloji Hazırlıq və İctimaiyyətlə Əlaqələr İdarəsinin şöbə rəisi polkovnik Rauf Dəmirov çıxışında həmkarların ordu ilə sıx əlaqədə olmasını yüksək qiymətləndirdi. Bildirdi ki, aprel döyüşlərindən sonra komitə üzvlərinin düşmənlə təmas xəttində yerləşən hərbi hissələrdə olması xoş qarşılanıb. "Xalq ilə ordunun birliyi qürurvericidir. Ordumuz güvənc yerimiz, qürur mənbəyimizdir. Ordumuz işğal altında olan torpaqlarımızı azad etməyə həmişə hazırdır. Güclü ordumuz, müasir silahlarımız, iqtisadi imkanlarımız Qələbənin yaxında olduğundan xəbər verir".

Müdafiə Nazirliyi Birləşmiş Həmkarlar İttifaqı Komitəsinin fəaliyyətinin təqdirəlayiq olduğunu bildirən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin sektor müdiri Əbülfət Məhərrəmov, Dövlət İdarə və İctimai Xidmət İşçiləri Həmkarlar İttifaqı Komitəsinin nümayəndəsi Əbülfət Mehdiyev və başqaları da bu təşkilatın gələcək fəaliyyətinə uğurlar arzuladılar.

Sonda qarşıda duran vəzifələr təhlil edildi.

**Leytenant**
**Günay TAĞIYEVA,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**çavuş**
**Namiq PƏNAHOVUNDUR**

# "Aprel döyüşləri yaddaşlarımızda unudulmaz iz buraxıb"

*Əsrlər boyu güclü dövlətlərin hərbi təcavüzünə məruz qalan Azərbaycan xalqı öz azadlığı, müstəqilliyi, dövlətçiliyi uğrunda mübarizə aparmaqla mövcudluğunu qoruyub saxlaya bilib, ən qüdrətli düşmən ordularına qarşı mübarizədə hünər, fədakarlıq nümunələri göstərib. Mərd, mətin oğullarımızın sayəsində Azərbaycanın qəhrəmanlıq tarixinin bütöv bir salnaməsi yaradılıb. Onların yaratdığı dəyərli ənənələr yüzilliklər boyu davam etdirilib, eyni zamanda gənc nəsil üçün örnəyə çevrilib.*

Son dövrlərin savaşı göstərdi ki, Azərbaycanın igid və cəsur oğulları, qeyrətli və ismətli qızları yenə də mübarizənin ön sıralarındadırlar.

Belə oğullarımızdan biri - müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Əmiraslanov Elxan Vilayət oğlu ilə ön xətdə tanış oluruq. Öyrənirik ki, Tovuz rayonunun Bayramlı kəndində anadan olan manqa komandiri aprel döyüşlərinin iştirakçısı kimi Lələtəpəyə ilk qədəm qoyanlardandı.

Özünü xoşbəxt hərbi qulluqçu adlandıran Elxan Əmiraslanov deyir ki, Lələtəpəyə ilk qədəm qoyanların sırasında olması onun sevincini ikiqat artırır: "Aprel döyüşləri mənim yaddaşımda unudulmaz iz buraxıb. Aprelin 1-də düşmən hücumunun qarşısını almaq və onları yerində oturtmaq məqsədilə əks-hücum əmri aldıq. İrəlilədikcə şəxsi heyətimizin sevincinin həddi-hüdudu yox idi. Həmin an Qələbə sevincini yaşayan əsgərlərimizdən bəziləri Vətəni tərənnüm edən şeirlər söyləyir, bəziləri muğam ifa edir, bir qismi isə rəqs edirdi. Bir sözlə, torpaqlarımızı azad etmək hissi hər birimizi istənilən anda yaxalaya biləcək ölüm hissindən güclü idi. Elə bu sevinclə, əzmlə cəmi 3-4 saat ərzində Lələtəpə yüksəkliyini geri aldıq və dövlət bayrağımızı həmin yüksəklikdə dalğalandırdıq. Həyatımın ən sevinclі anlarından birini yaşadım. Bu sevinci sözlə ifadə etməyə çətinlik çəkirəm...".



Həmsöbətim döyüşdə yaralandığını da bildirdi: "Tapşırıq gəldi ki, şəhidlərimiz və yaralılarımız döyüş bölgəsindən çıxarılmalıdır. Mən də silahdaşlarımla yaralılarımızı döyüş meydanından çıxarmağa yollandım. Tapşırığı güllə yağışı altında həyata keçirirdik. Qəfildən snayper gülləsinə tuş gəldim. Başımın arxa hissəsindən yaralandım. Elə həmin anda məndən bir az aralıda partlayış baş verdi. Sağ çiynimdən isə qəlpə yarası aldım. Əvvəlcə səhra hospitalına oradan isə Baş Klinik Hospitala gətirildim".

Elxan Əmiraslanov onu da bildirdi ki, aprel döyüşlərində ordumuzun kifayət qədər güclü olduğunu sübut etdik.

**Kapitan**
**Məhəmməd ƏLİYEV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

*Gənc əsgərlərin hazırlığı*

# Bu günün vətənpərvər gənci sabahın qalib əsgəridir

***Müstəqilliyimizin və ərazi bütövlüyümüzün qarantı olan ordunun gücü silah və texnika təminatı ilə yanaşı, həm də əsgərin döyüş hazırlığından bilavasitə asılıdır. Müasir silahlardan yüksək səviyyədə istifadə etməyi bacaran, Vətənə sonsuz sevgisi olan, hərbi sirlərə sadiq, yüksək döyüş ruhunda xidmət edən əsgərlərə malik ordu, ən qüdrətli ordudur. Müdafiə naziri general-polkovnik Zakir Həsənovun da dediyi kimi, ən müasir silahı da idarə edən əsgərdir. Bunun üçün də Azərbaycan Ordusunda gənc əsgərlərin hazırlığına daim yüksək diqqət göstərilir.***





Hərbi xidmətə gələn gənclərin bacarıqlı, vətənpərvər döyüşçü kimi yetişməsi, gənc əsgər hazırlığı dövründən başlanır. Bu gün ordumuzun bütün birləşmələrində gənclərə yüksək səviyyədə təlim keçirilir. Təlim müddətində atəş hazırlığından, döyüş taktikasından, sıra hazırlığı, ictimai-siyasi hazırlıq və digər vacib sahələrdən əyani və praktiki məşğələlər təşkil olunur. Bu müddət ərzində gənclər artilleriya, mühəndis, motoatıcı, rabitəçi və digər ixtisaslara yiyələnirlər.

"N" hərbi hissəsində gənc əsgər hazırlığının yüksək səviyyədə təşkilinin şahidi oldum. Hərbi hissənin nəzarət-buraxılış məntəqəsindən keçib birbaşa sıra meydanına üz tutdum. Hər bir sahədə olduğu kimi, orduda da intizam ən əsas və vacib şərtdir. Orduda şəxsi heyətin intizam vərdişləri öncə sıradan başlanır. Sırada gənclərin intizamlı duruşu, sıra hazırlığının tələblərini həvəslə öyrənmələri bir daha əminlik yaradır ki, onlar hərbi formanı, Azərbaycan əsgəri adını daşımaqla qürur duyurlar.

Leytenant Cabir Şükürlü əsgərlərə sıra hazırlığının elementlərini əvvəlcə izah edir, sonra isə onların müxtəlif çalışmaları icra etməsinə komanda verir. Əsgəri salamlama, sırada hərəkət, sağa-sola, geriyə dönmələr, yuxarı rəislərə yaxınlaşma və digər qaydaları əsgərlərə həvəslə öyrədir. Milli Qəhrəman Mübariz İbrahimovun həmyerlisi olan taqım komandirinin, Cəmşid Naxçıvanski adına Hərbi Liseyin və Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin məzunu olduğunu öyrənirəm.

- Hərbi xidmətə az müddətdir gəldiklərinə baxmayaraq sıradakı əsgərlər vərdişləri tez qavrayır, - zabit deyir. - Hiss edirsən ki, onların hər biri öyrənməyə, verilən tapşırıqları dəqiq yerinə yetirməyə can atır. Bu, mənə də xoş ovqat aşılayır. Zabit üçün bacarıqlı əsgər yetişdirmək ən başlıca vəzifədir. Bu vəzifənin öhdəsindən layiqincə gəlmək üçün bütün biliklərimi səfərbər edirəm.

Əsgərlərdən biri - orduya Masallı rayonundan çağırılan Yusif Yusifzadə fikirlərini bölüşür:

- Təlim kursumuz uğurla davam edir. Günün nizam qaydasına uyğun olaraq keçirilən məşğələlərdə hərbi bilik və bacarıqlara yiyələnirik. Hərbin sirlərinə dərindən alışırıq. Mən də döyüş mövqeyinə təyin olunacağım günü səbirsizliklə gözləyirəm. Əsgər üçün ən müqəddəs xidmət yeri səngərdir. Elə buna görə də səngərdə xidmət etməyi arzulayıram. Buna görə də təlimlərdə verilən tapşırıqları həvəslə yerinə yetirirəm. Bacarıqlı əsgər kimi formalaşıb düşmənə göz dağı olacağam.

Füzuli rayonundan olan əsgər Ruslan Rüstəmov deyir:

- Hərbi hissədə yaradılan yüksək şərait, komandirlərimizin doğma münasibəti bizi daha da ruhlandırır. İlk günlər darıxırdımsa, artıq özümü evimizdəki kimi hiss edirəm. Üzərimizə bir vəzifə düşür: dərslərdə fəal iştirak etməklə, silahların təyinatını və istifadə qaydalarını, döyüş hazırlığını və digər hərbi bilikləri mükəmməl öyrənməklə, Azərbaycan Ordusuna layiqli əsgər olmaq.

...Əsgərlərin söhbətlərindən bir daha əmin olursan ki, ürəkləri sonsuz Vətən sevgisi ilə döyünən gənclərimiz hərbi xidmətə bir məqsədlə - torpaqlarımızı göz bəbəyi kimi qorumaq üçün gəlirlər...

Günün ikinci yarısında baş leytenant Arif İsmayılovdan əsgərlərin ideoloji otaqda olduğunu öyrənirəm. Əsgər yataqxanasındakı təmizlik, səliqə-sahman nizam-intizamın yüksək səviyyədə olduğunu və xidmətin düzgün təşkilini göstərir. Müasir məişət otaqları və iki mərtəbəli çarpayılar, rahat yataq dəstləri, yun ədyallar, yuyunma ləvazimatları olan dolablar və s. yerləşən yataq otaqları göz oxşayır... İdeoloji otağa daxil oluram. Baş leytenant Tural Tahirov ictimai-siyasi hazırlıq məşğələsi keçir. Əsgərlər qrup rəhbərini diqqətlə dinləyirlər. "Azərbaycan Ordusu" qəzetindən mövzuya uyğun yazılardan istifadə edən zabit, ictimai-siyasi hazırlıq dərslərinin əhəmiyyətini vurğulayır:

- Hərbi xidmətə gələn gənclərin mənəvi dəyərlərə alışmasında, Vətən sevgisinin, düşmənə nifrət hisslərinin, qorxmaz və cəsur əsgərlər kimi formalaşmasında ictimai-siyasi hazırlıq dərslərinin də mühüm əhəmiyyəti var, - deyə zabit bildirir. - Bu məşğələlərdə ordumuzun yaranmasından və inkişafından, tariximizdən, hərbi nizamnamələrdən, vətənpərvərlikdən, qəhrəmanlıq nümunələrindən bəhs edən dərslər şəxsi heyətin döyüş ruhunun, mənəvi-psixoloji hazırlığının artırılmasında vacib rol oynayır.



Sonra əsgərlərlə həmsöhbət oluram. Hərbi xidmətə Oğuz rayonundan çağırılan İbrahim Həşimova əsgərin vəzifə borcu nədir sualını verirəm. Əsgər deyir:

- Komandirlərimiz hər gün bizdən vəzifə borclarımızı soruşurlar. Hamı kimi mən də əzbər bilirəm. Əsgərin vəzifə borcları, silahımızın taktiki-texniki xüsusiyyətləri, yazılı olan cib kitabçamı asudə vaxtlarımda vərəqləyir, bildiklərimi təkrar edirəm. Atama söz verdiyim kimi, xidmətə məsuliyyətlə yanaşır, komandirlərimin tapşırıqlarını dəqiq yerinə yetirirəm. Vətənpərvər, qorxmaz, cəsur, bir sözlə, xalqımızın, ordumuzun adına layiq əsgər olacağam.

Gənclərlə söhbətləşdikcə belə vətənpərvər oğulların istənilən hərbi bölmədə, yerləşdiyi şəraitdən asılı olmayaraq, uğurlu xidmət edəcəklərinə bir daha əmin olursan...

Növbəti məşğələ isə atəş hazırlığına həsr olunub. Bu dərsdə əsgərlər avtomatın sökülüb-yığılması, təyinatı, hissə və mexanizmləri haqqında öyrənirlər. Müşahidə edirəm ki, hərbi xidmətin hələ astanasında olmalarına baxmayaraq hər biri fəallıq göstərir, avtomatın hissələrini əzbər deyir, sərbəst söküb-yığırlar.

Əsgərlərin hərbi bilikləri yaxşı mənimsədiyini deyən gizir Fərman Yaqublunu tanıyıram. Atası Qarabağ torpaqları uğrunda gedən döyüşlərdə könüllü iştirak edərək şəhid olub. Vətənpərvərliyi, Vətən sevgisini atasından örnək alıb. "Atam da digər qəhrəman oğullar kimi torpaqlarımızın azadlığı uğrunda canından keçdi. O, döyüşlərə gedəndə mənə dedi ki, Vətən torpağından heç kimə pay olmaz. "Bu gün biz bu yolda döyüşə gedirik, gələcəkdə isə şücaət göstərmək sırası sizin olacaq. Şəhid olsam, kədərlənmə, oğlum, Vətən bizi bu günlər üçün yetişdirib," demişdi. O illərdən fərqli olaraq indi güclü ordumuz var. Əlimdən gəldiyi qədər vəzifələrimin öhdəsindən uğurla gəlməyə çalışıram ki, ordumuza layiqli gizir olum. Mən də başqa silahdaşlarım kimi döyüşməyə hər an hazıram".

Gizirlə tanışlıqdan sonra bir neçə əsgərlə də söhbətləşirəm.

Əsgər Orxan Allahverdiyev hərbi xidmətə Ağdam rayonundan çağırılıb. Təlim dövründə öyrəndiklərindən danışır:

- Hər gənc kimi mən də hərbi xidmətə gələcəyim günü səbirsizliklə gözləyirdim. Əsgərlik Vətən qarşısında övladlıq borcumuzdur. Bu borcun öhdəsindən layiqincə gəlmək hər birimizin arzusudur. Keçirilən məşğələlərdə silahların taktiki-texniki xüsusiyyətlərini, onlardan istifadə qaydalarını öyrənirik. Artıq normativləri vaxtında və düzgün icra edir, bütün tapşırıqları həvəslə yerinə yetirirəm. Təlim kursunu uğurla başa vurub əsgər yoldaşlarımla birgə düşmənə sipər olmağa gedəcəyəm.

- Yaradılan şəraitdən və göstərilən qayğıdan hər birimiz razıyıq, - əsgər Tural Ağayev deyir. - Hərbi xidmətə Füzuli rayonundan çağırılmışam. Xidmətə gəlməzdən əvvəl hərbi hissələrdə yaradılan yüksək şəraiti televiziya proqramlarından və qəzetlərdən izləyirdim. Lakin hərbi hissədə daha gözəl şəraitlə qarşılaşdım. Həm sosial təminatımız yüksəkdir, həm də savadlı, tələbkar, qayğıkeş komandirlərimiz var. Qısa zamanda onlar bizə bir çox hərbi biliklər öyrədiblər. Söz veririk ki, hərbi andа sadiq qalacaq, torpaqlarımızın azadlığı uğrunda vuruşmağa hər an hazır olacağıq.

Hərbi hissədə şahidi olduğum məşğələlər, söhbətləşdiyim gənclərin dilindən deyilən "Vətən artıq bizlərə əmanətdir, torpaqlarımızın keşiyində inamla duran, müqəddəs vəzifələrimizin öhdəsindən layiqincə gəlməyə qadir əsgərlər kimi formalaşırıq" sözləri əminliklə deməyə əsas verir ki, bu günün vətənpərvər gənci sabahın qalib döyüşçüsüdür.

**Leytenant**
**Mahmud MÖHBALIYEV,**
**"Azərbaycan Ordusu",**
**fotolar**
**C.CƏFƏROVUNDUR**

# Əsgər və zabitlər üçün bayram konserti təşkil olunub

*31 Dekabr - Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il münasibətilə Müdafiə Nazirliyi və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondunun birgə təşkilatçılığı ilə "N" saylı hərbi hissədə xidmət edən əsgər və zabitlər üçün bayram konserti keçirilib.*



Tədbir iştirakçıları əvvəlcə ümummilli lider Heydər Əliyevin hərbi hissədəki abidəsi önünə gül dəstələri düzərək, dahi rəhbərin xatirəsinə ehtiramlarını bildiriblər.

Fondun icraçı direktoru Fərhad Hacıyev əsgərləri qarşıdan gələn bayramlar münasibətilə təbrik edib, onlara uğurlar arzulayıb. O, gənclərin vətənpərvər ruhda, ölkəmizə və dövlətimizə sədaqətli, cəmiyyətə yararlı vətəndaş kimi formalaşması və inkişaf etməsi istiqamətində həyata keçirilən tədbirlərdən də söz açıb.

Bayram tədbirində çıxış edənlər Azərbaycanda ordu quruculuğundan, Silahlı Qüvvələrin təkmilləşdirilməsi və maddi-texniki bazasının gücləndirilməsində ulu öndər Heydər Əliyevin misilsiz xidmətlərindən danışıblar.

Bildirilib ki, Ulu Öndərin ordu quruculuğu siyasəti bu gün Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Silahlı Qüvvələrə göstərilən xüsusi qayğının nəticəsidir ki, Azərbaycan Ordusu bu gün regionun ən güclü ordusuna çevrilib və cəbhə xəttində düşmənin bütün təxribat cəhdlərinin qarşısı qətiyyətlə alınır, ona layiqli cavab verilir.

Hərbi hissənin rəhbərliyi Gənclər Fonduna gənclərin vətənpərvər ruhda tərbiyəsi istiqamətində həyata keçirdiyi layihələrə və tədbirlərə görə təşəkkürünü bildirib.

Çıxışlardan sonra hərbi qulluqçulara incəsənət ustalarının ifasında rəngarəng bayram konserti təqdim olunub.

**Müdafiə Nazirliyi Mətbuat Xidməti**

# Hərbçilərlə görüş keçirilib



*Müdafiə Nazirliyinin və İRƏLİ İctimai Birliyinin birgə təşkilatçılığı ilə hərbi hissədə görüş keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Mirhəsən Seyidovun rəhbərliyi ilə İRƏLİ İctimai Birliyinin nümayəndələri "N" hərbi hissəsində olublar.

Qonaqlar öncə Aprel şəhidlərinin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüblər.

Sonra hərbi hissədə şəxsi heyətin həyat və məişət şəraiti ilə yaxından tanış olan qonaqlar əsgərlərlə birlikdə nahar edib.

Tədbirin sonunda hərbi xidmətdə fərqlənmiş bir qrup hərbi qulluqçuya İRƏLİ İctimai Birliyinin rəhbərliyi adından fəxri fərman və qiymətli hədiyyələr təqdim olunub.

Sonda xatirə şəkilləri çəkdirilib.

# Hərbi hissədə Həmrəylik Günü qeyd edilib

*"N" hərbi hissəsində Gəncə şəhər Mərkəzləşdirilmiş Kitabxana sisteminin təşkilatçılığı ilə Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ilə əlaqədar tədbir keçirildi.*

Əvvəlcə xalqımızın ümummilli lideri Heydər Əliyevin və ölkəmizin ərazi bütövlüyü uğrunda şəhidlik zirvəsinə ucalanların xatirəsi yad edildi.

Polkovnik-leytenant Rüstəm Məmmədov çıxış edərək bildirdi ki, Dünya Azərbaycanlılarının Həmrəylik Gününün əsası tarixi şəxsiyyət, dünya şöhrətli siyasətçi Heydər Əliyev tərəfindən qoyulub. "Artıq neçə ildir ki, 31 dekabr dünyanın hər yerində tarixi gün kimi qeyd olunur. Ulu Öndər demişdir: "Harada yaşamasından asılı olmayaraq Azərbaycan bütün azərbaycanlıların doğma Vətənidir". Buna görə hər bir kəs çalışmalıdır ki, Vətəninə, xalqına sədaqətli olsun. Bu siyasət hazırda Prezident, Ali Baş Komandan İlham Əliyevin tərəfindən uğurla davam etdirilir. O təkcə Azərbaycan vətəndaşlarının yox, dünyada yaşayan bütün azərbaycanlıların Prezidenti kimi böyük rəğbət qazanıb. Əsası Ulu Öndər tərəfindən qoyulan dövlət quruculuğu sahəsində böyük irəliləyişə, tərəqqiyə nail olunub. Həyata keçirilən dünya miqyaslı layihələr, müqavilələr ölkəmizin beynəlxalq aləmdə nüfuzunu daha da artırıb."

Zabit çıxışına davam edərək vurğulayıb ki, Silahlı Qüvvələrimizdə son illər həyata keçirilən islahatlar ordumuzun daha da möhkəmləndirilməsinə səbəb olub. "Orduda qazanılan böyük uğurlar da bütün dünya azarbaycanlılarını sevindirir. İnanırıq ki, hər bir azərbaycanlının ən böyük istəyi olan Vətənimizin ərazi bütövlüyü tezliklə bərpa olunacaqdır."

Mərkəzləşdirilmiş Kitabxana sisteminin əməkdaşları Elnarə Hüseynova, Səidə Müseyibova və başqaları da Həmrəylik Günü və Yeni il münasibəti ilə arzu və istəklərini hərbçilərlə bölüşərək onlara qələbə sevinci arzuladılar.



Tədbir iştirakçıları kitab sərgisi ilə tanış oldular. Kitabxananın əməkdaşları tərəfindən onlara Ali Baş Komandan İlham Əliyevin fəaliyyəti haqqında geniş məlumat verildi. Bildirildi ki, onun yorulmaz fəaliyyəti nəticəsində ölkəmiz yeni inkişaf mərhələsinə qədəm qoyub və böyük uğurlara imza atıb.

Prezident İlham Əliyevin həyat və fəaliyyətindən bəhs edən viktorinada da hərbi qulluqçular fəal iştirak etdilər. Qaliblərə fəxri fərman və hədiyyələr təqdim olundu.

Ağdaş rayonundan gəlmiş musiqi kollektivinin hazırladığı konsert proqramı ilə tədbirə yekun vuruldu.

**Mübariz MUSAYEV, "Azərbaycan Ordusu"**

# Xəbərlər: hadisələr, faktlar

## Kabildə partlayış nəticəsində ölənlərin sayı 8 nəfərə çatıb



Dekabrın 25-də səhər saatlarında terrorçu kamikadze Əfqanıstanın paytaxtı Kabildə kəşfiyyat xidməti binasının girişində partlayış törədib.

Hadisə nəticəsində ölənlərin sayı 8 nəfərə çatıb, iki nəfər isə yaralanıb. Həlak olanlar arasında bir polis və bir hərbçi də var. Bu barədə ölkənin Daxili İşlər Nazirliyi bildirib.

Hadisənin məsuliyyətini İŞİD terror qruplaşması öz üzərinə götürüb.

## Hindistan-Pakistan sərhədində qarşıdurma: ölənlər var



Hindistan və Pakistan qoşunlarının Kəşmir nəzarət xəttində qarşılıqlı atışması nəticəsində dörd hind əsgəri həlak olub.

Hindistan ordusunun məlumatına görə, bölgədə qarşıdurma hələ də davam edir.

Qeyd edək ki, Hindistan ilə Pakistan arasındakı Kəşmir nəzarət xəttində bu cür qarşıdurmalar 2016-cı ildən bəri tez-tez baş verir.

## Antarktida qitəsi qlobal istiləşmədən iki dəfə daha çox isinir



Antarktida qitəsi qlobal istiləşmədən iki dəfə daha çox isinir.

Bunun nəticəsində dünyanın digər bölgələrindəki dəniz səviyyəsi arta bilər.

Bölgədə aparılan tədqiqatlar nəticəsində məlum olub ki, 1500 ildir dəniz səthi sahəsində bu qədər ərimə yaranmayıb. Həmçinin qlobal istiləşməni də nəzərə almaq lazımdır. Bunun qarşısını almaq üçün insanlar əlindən gələni etməlidir.

## İon dənizinin altında bölünmə xətləri aşkarlanıb



İtaliyalı tədqiqatçılar Adriatik dənizi və Aralıq dənizi arasında yerləşən maksimal dərinliyi 5121 metr təşkil edən İon dənizi altında dərin çatlar sistemi aşkar ediblər.

Bu mühüm tədqiqat işi Siciliyanın Kalabriyadan yavaş, lakin tədricən aralandığını və bu ərazidə güclü zəlzələnin baş vermə təhlükəsinin olmasını izah etməyə imkan verir.

"Bu ərazidə keçirilən çoxsaylı okeanoqrafik kampaniyalar dəniz kənarı yaxınlığında çat xətlərinin geniş sistemini aşkar etdi və indi həmin çatları tədqiq etmək olar", - deyə tədqiqatçı Alina Poloniya bildirib.

## Əfqanıstanda İŞİD terror qruplaşmasının 11 silahlısı öldürülüb



Əfqanıstan Hərbi Hava Qüvvələrinin ölkənin şərqində yerləşən Nanqarhar vilayətinin Açin rayonunda İŞİD terror qruplaşmasının gizli sığınacağına endirdiyi zərbələr nəticəsində 11 silahlı öldürülüb.

Əfqanıstan Müdafiə Nazirliyinin məlumatına görə, bu gün səhər tezdən həyata keçirilən hava əməliyyatı zamanı, həmçinin qruplaşmaya məxsus xeyli sayda silah-sursat da məhv edilib. Ordunun Baş qərargah rəisi Şərif Yaftəli bir qədər əvvəl məlumat vermişdi ki, ölkədə olan İŞİD silahlılarının sayı iki mindən çox deyil.

Xatırladaq ki, 2014-cü ildə ABŞ-ın hərbi kontingenti Əfqanıstanı tərk etdikdən sonra ölkənin cənub rayonlarının bir çoxu "Taliban" hərəkatının nəzarətinə keçib. Son zamanlar bəzi kənd rayonlarında üstünlüyə yiyələnən taliblər böyük şəhərlər istiqamətində də hücumlarını davam etdirir. Həmçinin regionda İŞİD terror qruplaşması aktiv fəaliyyət göstərir.

**AZƏRTAC-ın materialları əsasında**

# Heydər Əliyev adına Hərbi Liseyin kursantları arasında viktorina keçirilib

*Əlahiddə Ümumqoşun Ordunun Təlim-Tədris Mərkəzində keçirilən tədbirə Azərbaycan Respublikasının Dövlət himninin səsləndirilməsi ilə başlanılıb.*



Heydər Əliyev adına Hərbi Liseyin rəisi general-mayor Elman Orucov çıxış edərək bilik yarışında iştirak edən kursantlara uğurlar arzulayıb.

Sonra intellekt mübarizəsinə start verilib.

Kursantların Vətənə məhəbbət, dövlətçiliyə sədaqət ruhunda tərbiyə olunması məqsədi ilə keçirilən viktorinada 6 komanda iştirak edib.

3 mərhələdə keçirilən viktorinada fasilələr zamanı kursantlar və məktəblilər mahnı, şeir və rəqs nümunələri ilə çıxış ediblər. Hərbi vətənpərvərlik mövzusunda videoçarxlar nümayiş olunub. Kursantların göstərdikləri səhnəciklər tədbirə əlavə rəng qatıb.

"Hünər", "Qarabağ", "Vətən", "Sipər", "Qələbə" və "Zəfər" komandalarının yarışdığı viktorinanın qalibi "Qələbə" komandası olub.

Qalib komandanın üzvləri və tədbirdə fəal iştirak edən məktəblilər müxtəlif hədiyyələrlə mükafatlandırılıblar.

**Leytenant Nəriman NƏCƏFOV,**
**foto əsgər R.ƏLƏSGƏROVUNDUR**

# Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinə yeni mənzillər verilib

Ölkə Prezidenti İlham Əliyevin tapşırığına əsasən Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin mənzil-məişət şəraitinin yaxşılaşdırılması sahəsində məqsədyönlü işlər görür.

Nazirliyin ictimaiyyətlə əlaqələr şöbəsindən AZƏRTAC-a bildiriblər ki, bu sahədə növbəti tədbir kimi, Bakıda yeni yaşayış binalarından alınaraq təmir etdirilmiş 81 ədəd mənzil Qarabağ müharibəsi və şəhid ailələrinin istifadəsinə verilib. Yeni mənzil alanlardan 4-ü Azərbaycanın Milli qəhrəmanlarının ailələridir.

Mənzillərin təqdim olunması tədbirində Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini İlqar Rəhimov çıxış edərək Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin sosial müdafiəsinin gücləndirilməsinin, habelə mənzil-məişət şəraitlərinin yaxşılaşdırılmasının dövlət başçısının sosial inkişaf kursunun əsas istiqamətlərindən biri olduğunu bildirib. Qeyd olunub ki, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi yeni fərdi yaşayış evləri inşa etdirərək və hazır yaşayış binalarından mənzillər alıb təmir etdirməklə Qarabağ müharibəsi əlilləri və şəhid ailələrinin istifadəsinə verir. Təkcə bu ay nazirlik həmin təbəqəyə məxsus 100 nəfəri mənzillə təmin edib. Ümumilikdə, 2014-2017-ci illərdə 1350 nəfər Qarabağ müharibəsi əlili və şəhid ailəsinə mənzillər təqdim olunub. İndiyədək mənzillə təmin edilən əlil və şəhid ailələrinin sayı isə 6,1 mini ötüb.

Tədbirdə ayrı-ayrı ictimai birliklərin rəhbərləri ölkəmizdə bu sahədə həyata keçirilən tədbirlərin, ölkəmizin müdafiəsi naminə döyüşlərdə şəhid olmuş Vətən övladlarının ailələrinin, həmin döyüşlərdə əlil olanların diqqət və qayğı ilə əhatə olunmasının, o cümlədən yeni mənzillər verilməsinin cəmiyyətdə rəğbətlə qarşılandığını vurğulayıblar.

Yeni mənzil alan Qarabağ müharibəsi əlilləri və şəhid ailələri Dünya Azərbaycanlılarının Həmrəylik Günü və Yeni il bayramı ərəfəsində həyatlarına rahatlıq gətirən mənzillərin ölkəmizin ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi uğrunda döyüşlərdə əlil olanlara və həmin döyüşlər zamanı şəhid olmuş qəhrəman Vətən övladlarının ailələrinə yüksək dövlət qayğısının ifadəsi olduğunu söyləyiblər.

*Hərbi ənənələr, yeniliklər*

# "Qorets" ("Dağlı") minaatan kompleksi

Rusiyanın 120 mm-lik yüksək manevrli minaatan sistemi 2000-ci ilin əvvəlində bir neçə müəssisənin qarşılıqlı fəaliyyəti nəticəsində hazırlanıb. Zirehli "Vodnik" QAZ-39371 avtomobilinin şasisi üzərində xüsusi platformada 120 mm-lik minaatan quraşdırılıb. "Vodnik" avtomobilinin istehsalı dayandırıldığına görə, minaatan kompleksi izrə işlər də dayandırılıb.



İki il bundan qabaq "Motovilixin zavodu" və "Hərbi sənaye şirkəti" minaatan sisteminin yaradılması işinə qayıdıblar. Artıq mütəxəssislər öz diqqətlərini çoxməqsədli "Tiqr" zirehli avtomobilinin üzərində dayandırıblar. Hər il bu zirehin şasisinin üzərində müxtəlif növlü, müxtəlif təyinatlı yeni sistemlər - zirehli maşınlardan tutmuş "Kornet-D1" raket komplekslərinədək quraşdırıblar. Onun üzərində distansion idarə olunan 120 mm-lik minaatan sistemi də yenidən işlənilib və maşının arxa tərəfində quraşdırılıb. Onun elektrik tuşlama ötürücüləri də vardır. Minaatanın techizatı yarımavtomat rejimdə həyata keçirilir. Atəşə hazırlıq haqqında məlumatlar da avtomatik rejimdə həyata keçirilir. Hədəflər haqqında vəziyyət komandirin çoxfunksiyalı monitorunda əks etdirilir. Minaatan kompleksindən atəş açmaq üçün bütün növ 120 mm-lik minalardan istifadə edilir. Adi döyüş sursatı ilə atəş uzaqlığı 480 metrdən 7180 metrə qədərdir. Hazırda bu minaatanın sınaqları davam etdirilir.

**Hazırladı:**
**Svetlana YUSUBOVA,**
**"Azərbaycan Ordusu"**

# İdman

## Milli Qəhrəmanın xatirəsinə həsr olunmuş ağır atletika üzrə açıq turnirinə start verilib



Dekabrın 23-də Şüvəlan qəsəbəsindəki Ağır Atletika Akademiyasının yarış zalında Milli Qəhrəman Fəxrəddin Şahbazovun xatirəsinə həsr olunmuş ağır atletika üzrə açıq turnirinə start verilib.

Bakı Şəhər Gənclər və İdman Baş İdarəsi və Azərbaycan Ağır Atletika Federasiyasının təşkilatçılığı ilə keçirilən yarışda paytaxt və regionlarda fəaliyyət göstərən idman təşkilatlarından 1997-ci il və daha kiçik təvəllüdlü yeniyetmə və gənc ağır atletlər iştirak edirlər.

Artıq 50 kiloqram çəki dərəcəsində qaliblər müəyyənləşib. Ömər Cavadov toplam 165 kiloqram (75+90) nəticə ilə qızıl medala sahib olub. İkinci yeri 148 kiloqram (68+80) nəticə ilə Əvəz Tağıyev, üçüncü yeri isə 127 kiloqramla (56+71) Heydər Yusifov tutublar.

## Qılıncoynatma üzrə ölkə çempionatının qalibləri müəyyənləşib



Azərbaycan Texniki Universitetinin İdman Sarayında qılıncoynatma üzrə ölkə çempionatı keçirilib.

Azərbaycan Qılıncoynatma Federasiyasının (AQF) baş katibi Vasif Məmmədov iştirakçıları salamlayaraq, yarışları açıq elan edib.

Beynəlxalq Qılıncoynatma Federasiyasının müvafiq qaydalarına uyğun keçirilən çempionatda 73 idmançı sablya, rapira və şpaqa növlərində mübarizə aparıblar. Sablya növündə yarışda kişilərin mübarizəsində Abdulla Həsənov, qadınlar arasında isə Sevil Bünyatova qızıl medala sahib olublar. Rahim Əmirov və Məhin Məlikova rapira yarışlarında fəxri kürsünün ən yüksək pilləsinə qalxıblar. Şpaqa növündə isə Barat Quliyev və Elmira Xudaverdiyeva fərqləniblər.

Çempionatın qalibləri AQF tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıb.

## "Sərhədçi" komandası çövkən milli atüstü oyunları üzrə "Prezident Kuboku" turnirinin qalibi olub



Dekabrın 24-də Binə Atçılıq Mərkəzinin qapalı manejində keçirilən çövkən milli atüstü oyunu üzrə "Prezident Kuboku" turnirinə yekun vurulub.

Turnirin sonuncu günündə oyunları Dövlət Təhlükəsizlik Xidmətinin rəisi Mədət Quliyev, Mədəniyyət və Turizm naziri Əbülfəs Qarayev və Azərbaycan Atçılıq Federasiyasının prezidenti Elçin Quliyev izləyiblər.

Bürünc medallar uğrunda "Ağcabədi" və "Ağstafa" komandaları mübarizə aparıb. Oyunda 3:0 hesabı ilə qalib gələn "Ağcabədi" bürünc medala layiq görülüb.

Final qarşılaşmasında isə "Sərhədçi" və "Polad" komandaları qarşılaşıb. Gərgin mübarizə şəraitində keçən oyunda "Sərhədçi" komandası 2:1 hesabı ilə qalib gələrək çempion adını qazanıb.

Qaliblərə kubok, medal və diplomlar təqdim olunub.

**AZƏRTAC-ın materialları əsasında**

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik Şəfaət Mehdiyev küçəsi 144, "Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
baş leytenant
Məhəmməd NƏSİRLİ

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur. "Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 782
Nüsxə 4600